Almaniya Federativ Respublikası

Bundesamt für Migration und Flüchtlinge

euaa EUROPEAN UNION AGENCY FOR ASYLUM

# EURODAC HAQQINDA BİLMƏLİ OLDUQLARINIZ





AZERBAIJAN

## BU KİTABÇA MƏNƏ NƏ ÜÇÜN VERİLİR?

Bu kitabça biometrik datanız səlahiyyətli orqanlar tərəfindən götürülməli olduğu üçün sizə verilir.



Biometrik data dedikdə, barmaq izləriniz və fotoşəkliniz nəzərdə tutulur.



Bu data, şəxsiyyətinizə aid olan və digər müvafiq məlumatlarla birlikdə "Eurodac" verilənlər bazasına ötürüləcək.

Bu proses zamanı hüquqlarınız və sizdən gözlənilənlər bu kitabçada izah olunur.

## EURODAC NƏDİR?

Eurodac, Aİ+ ölkələrinə daxil olan müəyyən kateqoriyalı şəxslərə aid məlumatları saxlayan və müqayisə edən Avropa verilənlər bazasıdır. Bu kateqoriyalar bu kitabçada ətraflı təsvir edilir.

Bu verilənlər bazası, datanızı emal edə və məlumatlarınızı əldə edə bilən 31 Aİ+ ölkəsi tərəfindən istifadə olunur. Başqa bir Aİ+ ölkəsinə icazə olmadan səfər etsəniz və datanız yenidən alınarsa, həmin ölkənin səlahiyyətli orqanları "Eurodac"da saxlanılan bütün datanızı görəcəklər. Bəzi hallarda datanıza yeni məlumatlar əlavə ediləcəkdir.

## Aİ+ ÖLKƏLƏRİ HANSILARDIR?

**Hazırda siz Almaniyadasınız, bu, Aİ+ ölkələrindən biridir.**
**Aİ+ ölkələrinə daxildir:**

Avropa İttifaqına (Aİ) üzv olan 27 dövlət: Almaniya, Avstriya, Belçika, Bolqarıstan, Çexiya, Danimarka, Estoniya, Finlandiya, Fransa, Hollandiya, Xorvatiya, İrlandiya Respublikası, İspaniya, İsveç, İtaliya, Kipr, Latviya, Litva, Lüksemburq, Macarıstan, Malta, Polşa, Portuqaliya, Rumıniya, Slovakiya, Sloveniya, Yunanıstan və

digər 4 ölkə: İslandiya, İsveçrə, Lixtenşteyn, Norveç.

# EURODAC-IN MƏQSƏDİ NƏDİR?

Eurodac-ın beş əsas məqsədi var:

- Aİ+ ölkələrinə beynəlxalq himayə üçün ərizənizi nəzərdən keçirməkdən hansı ölkənin məsul olduğuna qərar verməyə kömək etmək
- Aİ+ ölkələrinə qanuni və qeyri-qanuni miqrasiyanın monitorinqini həyata keçirməyə kömək etmək
- milli səlahiyyətli orqanlar arasında məlumatları bölüşmək və cinayətkarlığın və terrorizmin qarşısını almaq
- Avropaya gələn uşaqların izlənməsini və qorunmasını təmin etmək
- vizalar kimi aspektlərlə bağlı məlumatları özündə əks etdirən digər Avropa verilənlər bazalarının düzgün işləməsini təmin etmək.



# EURODAC-DA KİMƏ AİD DATA SAXLANILIR?

Eurodac, Aİ+ ölkəsinin vətəndaşı olmayan aşağıdakı şəxslərin datasını ehtiva edir:

- beynəlxalq himayə üçün müraciət edənlərin
- Aİ+ ölkəsinin xarici sərhədini icazəsiz keçənlərin
- dənizdə xilas edildikdən sonra Aİ+ ölkəsində quruya çıxarılanların
- Aİ+ ölkəsində qanunsuz olaraq qalanların
- Aİ-nin köçürmə və ya humanitar qəbul proqramı və ya milli köçürmə proqramı vasitəsilə Aİ+ ölkəsinə gələnlərin
- müvəqqəti himayə ilə təmin olunanların.

## MƏNƏ AİD DATANI KİM GÖRƏ BİLƏR?

Aİ+ ölkəsindəki sığınacaq məsələləri üzrə milli səlahiyyətli orqanlar biometrik datanızı götürəcək, digər müvafiq məlumatlarla birlikdə Eurodac-a ötürəcək və müqayisənin nəticəsini alacaq.

Aİ Hüquq Mühafizə Orqanları üzrə Əməkdaşlıq Agentliyi və milli polis orqanları ağır cinayətlərin və terrorizmin qarşısının alınması, aşkarlanması və araşdırılması məqsədilə Eurodac-a giriş tələb edə bilərlər. Onlar Eurodac-da datanızı axtara bilərlər.

**VACİBDİR!** Vətəninizin səlahiyyətli orqanları bu məlumatlara daxil ola bilməyəcəklər.

## BARMAQ İZLƏRİMİ VERMƏKDƏN İMTİNA ETSƏM NƏ BAŞ VERİR?



Qanuna uyğun olaraq biometrik datanızı təqdim etməyə borclusunuz.

Barmaq izlərinizin tələb olunmasının əsaslı səbəbləri var. Sığınacaq verilməsi üçün müraciət etmisinizsə, bu, prosesin zəruri bir hissəsidir.

Barmaq izi datası həmçinin Aİ+ ölkələrində mövcud olan ailə üzvlərinizi tapmağa kömək edə bilər.

Barmaq uclarınız zədələnibsə, gələcəkdə barmaq izləri yenidən götürüləcək.

Barmaq izlərinizi qəsdən zədələsəniz, bu, mənfi nəticələrə səbəb olacaq.

Məsələn, sığınacaq verilməsi üçün müraciət etmisinizsə, bu proses dayandırıla bilər.

Əgər məsələnizlə bağlı proses dayandırılıbsa, bu o deməkdir ki, siz artıq müraciət edən (sığınacaq axtaran) sayılmırsınız. Bu statusla əlaqəli bütün hazırkı və gələcək hüquqlarınızı itirəcəksiniz.

Biometrik datanızı əldə etmək üçün Aİ+ ölkələrinin səlahiyyətli orqanları son çarə olaraq sizə təzyiq göstərə bilərlər. Onlar həmçinin şəxsiyyətinizi müəyyən etmək və ya təsdiqləmək üçün son çarə olaraq sizi saxlatdıra edə bilərlər.

Bu ölkənin səlahiyyətli orqanlarına barmaq izlərinizi verməkdən imtina etsəniz, bu, müəyyən nəticələrə səbəb olacaqdır.

İmtinanız sığınacaq müraciətinizin rədd edilməsinə səbəb ola bilər.

## EURODAC-DA MƏNƏ AİD DATA İLƏ BAĞLI HANSI HÜQUQLARIM VAR?

Hər bir Aİ+ ölkəsində datanın istifadəsinə nəzarət edən səlahiyyətli orqan mövcuddur. Sizin data nəzarətçisi və datanın qorunması üzrə məsul şəxslə əlaqə saxlamaq və Eurodac-da saxlanılan datanıza daxil olmağı istəmək hüququnuz var.

Məlumatlarınıza düzəliş edilməsini tələb edə bilərsiniz, əgər hesab edirsiniz ki, onlar:

- dəqiq deyil və düzəldilməlidir
- natamamdır və yenilənməlidir

Məlumatlarınızın silinməsini tələb edə bilərsiniz, əgər hesab edirsiniz ki, onlar:

- Eurodac-a qanunsuz daxil olunub.

Data nəzarətçisi və datanın qorunması üzrə məsul şəxsin əlaqə məlumatlarını bu kitabçanın son səhifəsində, "**digər faydalı məlumatlar**" başlığı altında tapa bilərsiniz.

Datanızın istifadəsi ilə bağlı rəsmi olaraq şikayət etmək istəyirsinizsə, milli müşahidə orqanı ilə əlaqə saxlaya bilərsiniz.

Milli müşahidə orqanının əlaqə məlumatlarını bu kitabçanın son səhifəsində tapa bilərsiniz.

# DİGƏR FAYDALI MƏLUMATLAR

## DATA NƏZARƏTÇİSİ OFİSİNİN ƏLAQƏ MƏLUMATLARI HAQQINDA MƏLUMAT

Aşağıda siz bu ölkədəki data nəzarətçisinin ofisi və datanın qorunması üzrə məsul şəxslə necə əlaqə saxlayacağınız barədə məlumatı tapa bilərsiniz.

Data nəzarətçisi sizə hansı şəxsi datanızın Eurodac-da saxlanıldığı barədə məlumat verə bilər. Şəxsi datanız düzgün saxlanılmayıbsa, bu datanın düzəldilməsini tələb edə bilərsiniz.

Məlumatlarınızdan hər hansı birinin qanunsuz şəkildə istifadə edildiyini düşünürsünüzsə, aşağıdakı əlaqə məlumatlarından istifadə edərək bu məlumatların silinməsini tələb edə bilərsiniz.

**Miqrasiya və Qaçqınlar üzrə Federal İdarə (BAMF)**

Ünvan: Frankenstraße 210, 90461 Nürnberg
Telefon: +49 (0)911 943 0
Faks: +49 (0)911 943 10000
E-poçt: service@bamf.bund.de

## MİLLİ MÜŞAHİDƏ ORQANLARININ ƏLAQƏ MƏLUMATLARI HAQQINDA MƏLUMAT

Bu ölkədəki milli müşahidə orqanı ilə əlaqə saxlamaq üçün aşağıdakı məlumatlardan istifadə edə bilərsiniz.

Şəxsi datanızdan hər hansı birinin qanunsuz şəkildə istifadə edildiyini hiss edirsinizsə, milli müşahidə orqanına rəsmi olaraq şikayət edə bilərsiniz.

**Məlumatların Mühafizəsi və İnformasiya Azadlığı üzrə Federal Müvəkkil**

Ünvan: Graurheindorfer Str. 153, 53117 Bonn
Telefon: +49 (0)228 997799-0
E-poçt: poststelle@bfdi.bund.de

# MƏNİM QEYDLƏRİM

Bu kitabça yalnız məlumatlandırma məqsədləri üçün nəzərdə tutulub. O özü heç bir hüquq və ya öhdəlik yaratmır. Bu materialın əsas hissəsini Avropa İttifaqının Sığınacaq Agentliyi (EUAA) təqdim edib, və bu kitabçanın surətinin çıxarılmasına və dəyişdirilməsinə EUAA tərəfindən yalnız Aİ-nin üzvü olan dövlətlərə icazə verilir. Aİ-nin üzvü olan dövlətlər və ya digər səlahiyyətli üçüncü şəxslər tərəfindən bu kitabçaya daxil edilən məlumatların dəqiqliyi, məzmunu, tamlığı, qanuniliyi və ya etibarlılığına görə EUAA heç bir məsuliyyət və ya cavabdehlik daşımır. Bu kitabçada mövcud olan məlumatlardan istifadəyə görə nə EUAA, nə də EUAA adından hərəkət edən hər hansı bir şəxs məsuliyyət daşımır.

© European Union Agency for Asylum, 2025